

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 27 (24.164)

11 fevral 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Türkiyənin Naxçıvandakı Baş konsulu ilə görüşüb



Fevralın 10-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya ilə görüşüb.

Səlahiyyətli nümayəndə Türkiyədə baş verən zəlzələdə həlak olanlarla bağlı bir daha başsağlığını çatdırıb, öz növbəsində, Baş konsul göstərilən yardımlara və dəstəyə görə təşəkkür edib.

Görüşdə ölkələrimiz arasındakı strateji tərəfdaşlıqdan bəhs edilib, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ikitərəfli münasibətlərdəki yeri və əlaqələrin gələcək inkişaf perspektivləri müzakirə olunub.

**"Şərq qapısı"**

## Dövlət Bayrağı Muzeyində Naxçıvanın muxtariyyətinə həsr olunmuş interaktiv dərs keçilib



*Fevral ayının 10-da Dövlət Bayrağı Muzeyi ilə Ordubad rayon Xanağa kənd tam orta məktəbi arasında "Naxçıvanın muxtariyyəti: dünən və bu gün" mövzusunda interaktiv dərs keçilib.*

Muzeyin bələdçisi tərəfindən aparılan dərsdə muxtariyyətin tarixi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, ötən əsrin əvvəllərində Naxçıvan tarixi torpağımız olan Zəngəzurun itirilməsi ilə Azərbaycanın əsas hissəsindən ayrı düşüb.Yaranmış fürsətdən istifadə edən erməni millətçiləri Naxçıvanı tutmaq üçün hər cür vasitələrə əl atıblar. Lakin qəhrəman naxçıvanlıların, dövrün vətənpərvər ziyalılarının inadlı müqaviməti bölgənin işğal edilməsinə yol verməyib. 1921-ci ildə Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verib. Qeyd olunub ki, Naxçıvanın muxtariyyət statusu qazanmasında Moskva və Qars müqavilələrinin müstəsna əhəmiyyəti var.

Dərsdə vurğulanıb ki, ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir"***, – deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər diyarın hərtərəfli inkişafını təmin edib.

Şagirdlərin diqqətinə çatdırılıb ki, ölkə Prezidenti cənab İlham Əliyev bu tarixi günlə bağlı 2009-cu il fevralın 6-da xüsusi Sərəncam imzalayıb.Ölkə başçısının ötən dövrdə muxtar respublikanın müdafiə, enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi yolunda atdığı mühüm addımlar Naxçıvanın hərtərəfli inkişafına təkan verib.

Dərsin sonunda muzeyin ekspozisiyası haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, interaktiv dərs muxtar respublikanın ümumtəhsil məktəbləri tərəfindən izlənilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur

*Naxçıvan Müəllimlər İnstitutunda "2022-ci ilin yekunları və 2023-cü ildə qarşıda duran vəzifələr" mövzusunda genişləndirilmiş Elmi Şuranın iclası keçirilmişdir.*

İnstitutun rektoru Azad Novruzov illik hesabat məruzəsində qeyd edib ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş Naxçıvan Müəllimlər İnstitutunun ümumrespublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində görülmüş işlər 2022-ci təqvim ilində də davam etdirilmişdir.

Diqqətə çatdırılıb ki, elmi-pedaqoji kadrların hazırlanması və institutun elmi potensialının möhkəmlənməsi istiqamətində bir sıra nəticələr əldə edilmişdir. Hesabat ilində 16 dissertant fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə etmiş, 4 əməkdaş pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Vurğulanıb ki, əldə edilmiş elmi nəticələrin beynəlxalq və ölkə elmi məkanında tanıdılmasını təmin etmək məqsədilə Naxçıvan Müəllimlər İnstitutunda hazırda çalışan bütün əməkdaşların (100 əməkdaşdan 96 nəfərinin) *academia.edu* açıq akademik sistemdə səhifələri açılmışdır. Əvvəllər çap edilmiş, lakin internetdə olmayan məqalələrinin bu sistemdə yerləşdirilməsinə, institutun rəsmi *nmi.edu.az* saytında akademik heyət üzvlərinin mövcud fərdi səhifələrinin yenilənməsi və onların bütün nəşrlərinə keçidlərin həmin səhifələrə inteqrasiya edilməsinə başlanılmışdır.



2022-ci ildə institut əməkdaşlarının 314 əsəri, o cümlədən 4 monoqrafiya, 5 dərs vəsaiti, 42 tədris-metodik vəsaiti və fənn proqramı, 216 elmi və elmi-metodik məqaləsi (dövri elmi jurnallarda və konfrans materiallarında), 47 tezisi çap olunmuşdur. Xaricdə nəşr olunmuş məqalələrdən 13-ü beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan elmi nəşrlərdə dərc edilmişdir.

Bildirilib ki, Naxçıvan Müəllimlər İnstitutunda 2022-ci ildə 1 beynəlxalq, 2 respublika və 19 institut səviyyəli elmi konfrans və digərləri hibrid (əyani və videobağlantı) formatda təşkil edilmişdir.

Qeyd olunub ki, il ərzində tələbələrin milli, dini -mənəvi maarifləndirilməsinin təmin edilməsi məqsədilə qəbul olunmuş müxtəlif Tədbirlər Planına əsasən tərbiyə işləri sistemli şəkildə aparılmışdır. Ümumilikdə, 104 adda institutdaxili və ölkə səviyyəli müxtəlif səpkili tədbirlərdə tələbələrin iştirakı təmin edilmişdir. Xarici əlaqələr sahəsindəki işlər diqqət mərkəzində saxlanılmışdır. İnstitut Mevlana Mübadilə Proqramı çərçivəsində əməkdaşlığı davam etdirmişdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Yeni istehsal sahəsi yaradılır

***Azərbaycanda həyata keçirilən genişmiqyaslı iqtisadi siyasətin əsas nailiyyətlərindən biri də sənayenin müxtəlif istiqamətlərinin müəyyən olunması və inkişaf etdirilməsidir. Bu baxımdan son dövrlərdə neftdən əldən edilən gəlirlərin yeni istehsal müəssisələrinin yaradılmasına yönəldilməsi təsadüfi deyildir. Artıq bu istiqamətdə çox mühüm və ardıcıl layihələr həyata keçirilir. Dövlətimizin başçısının müvafiq tapşırıq və sərəncamlarına uyğun olaraq müasir istehsal sahələrinin yaradılması və istifadəyə verilməsi iqtisadiyyatın gücləndirilməsinə xidmət edir. Bu da ölkədə rəqabətədavamlı və keyfiyyətli məhsullar istehsal etməyə geniş imkanlar açır.***



Naxçıvanda "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətində salfet istehsalı sahəsinin yaradılması sənayenin bu sahəsinin inkişafını daha da sürətləndirəcəkdir. Belə müəssisələr həm də rəqabətədavamlı məhsul istehsal etməklə ölkəmizdə gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verəcəkdir.

Yaxın zamanlarda məhsul istehsalına başlayacaq müəssisə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kredit və "Ləzzət Qida Sənaye" MMC-nin vəsaiti hesabına inşa olunub. Müəssisədə artıq tikinti işləri yekunlaşıb, hazırda sınaq istehsalı və avadanlıqların tənzimlənməsi işləri aparılır.



İstehsal sahəsində yüksəkkeyfiyyətli kağız məmulatları – salfet, mətbəx dəsmalı, tualet kağızı, qutu salfetlər və digər çeşidlər istehsal olunacaqdır. Müəssisənin istehsal gücü gündə 8 ton hazır məhsul çıxarılmasına imkan verir. Türkiyənin bu sahədə aparıcı şirkətlərinə məxsus avadanlıqlar vasitəsilə istehsal olunacaq məhsullar bazar şəraiti və rəqabət mühitinə uyğun şəkildə istehlakçıya təqdim olunacaqdır.

Bu layihənin Naxçıvan ərazisində həyata keçirilməsi şəhərin sosial-iqtisadi inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Müəssisənin tam şəkildə işə düşməsi nəticəsində 20 nəfərlik yeni iş yerinin açılması nəzərdə tutulur.

Layihənin əhəmiyyəti ilə bağlı digər vacib məqam yerli kadr bazasının gücləndirilməsi, beynəlxalq standartların tələblərinə uyğun olan istehsal prosesinin daha geniş şəkildə öyrənilməsi, eləcə də gələcəkdə bu sahənin muxtar respublikada təkmilləşdirilməsi və inkişafıdır.

Qeyd olunmalıdır ki, ilkin mərhələdə məhsulların daxili bazarda və Azərbaycanın digər regionlarında satışı nəzərdə tutulur, növbəti mərhələdə isə ixracın təşkil edilməsi planlaşdırılır.



***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Yüz yaşlı nəğməkar şair ömrünün töhfələri

*Azərbaycan ədəbiyyatının qədim və zəngin tarixi vardır. Bu ədəbiyyat XX əsrdə Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun kimi görkəmli söz ustaları yetirmişdir. Belə sənətkarlardan biri də qədim Naxçıvanın yetirməsi nəğməkar şair və qüdrətli dramaturq İslam Səfərlidir. Azərbaycan poeziyası tarixində özünməxsus yer tutan nəğməkar şair, həmyerlimiz İslam Səfərlinin fevral ayında anadan olmasının 100 illiyi tamam olur.*

İslam Səfərli 12 fevral 1923-cü il tarixdə indiki Babək rayonunun Şəkərabad kəndində ziyalı ailəsində dünyaya gəlmişdir. Atası Əhməd xan, anası Hökümə xanım əsil-nəcabətli ailədən çıxmışdır. O, yeddiillik kənd məktəbini bitirdikdən sonra ailəsi ilə Naxçıvan şəhərinin, Sarvanlar məhəlləsinə köçür. Burada gələcək şair indiki 1 nömrəli məktəbdə təhsilini davam etdirir, məktəbdəki dram dərnəyinə gedir, poeziyaya maraq göstərir.

Şair 17 yaşından ədəbi yaradıcılığa başlamışdır. Onu da qeyd edək ki, İslam Səfərli Ulu Öndər Heydər Əliyevlə eyni məktəbdə oxumuş və bir-birlərinə həmişə hörmətlə yanaşmışlar. Məktəbdə fəal şagirdlərdən biri kimi seçilən, əla qiymətlərlə oxuyan şair 1941-ci ildə təhsilini başa vurmuş, amma qəflətən müharibənin başlanması onun oxumaq arzusunu gözündə qoymuş, elə müharibənin ilk ilində məhəllədəki 13 gənclə birlikdə könüllü şəkildə cəbhəyə getmişdir. İslam Səfərli 416-cı Taqanroq diviziyasında Berlinə qədər şanlı döyüş yolu keçmiş, kəşfiyyatçı olmuş, döyüş tapşırıqlarını şərəflə yerinə yetirmiş, eyni zamanda bir-birindən maraqlı poeziya nümunələri yazmışdır.

Ona görə şairin Vətən müharibəsindən danışan kiçik şeirlərində konkret lövhələr görürük:

*Boş vaxtlarda şeir yazan,*
*Əldə qaşıq, dizdə qazan,*
*İştahayla xörək yeyən,*
*Tüfəng silən, nəğmə deyən,*
*Evlərindən məktub alan,*
*Saz götürən, qarmon çalan*
*Kimdir? Soruşsanız əgər,*
*Onüçlərdir, – deyərdilər.*

Adıçəkilən 13-lərdən biri olan uşaqlıq dostunun cəbhədə həlak olması şairi sarsıdır. O, əziz dostuna həsr etdiyi "Qoşa söyüd" şeirində duyğularını bu sözlərlə ifadə edir:

*Nakam getmiş bu cavanın*
*Nə şöhrəti, nə adı var.*
*Nə kiçik bir əsəri,*
*Nə də ki bir övladı var.*
*Onun doğma kəndimizdə*
*Təkcə ayaq izi vardır.*
*Bir də ki bu göy söyüdlər*
*Ondan bizə yadigardır.*
*Doğma kəndim, bunları sən*
*Əziz saxla öz sinəndə.*
*O gəlsə də, gəlməsə də,*
*Yadigarı durur səndə.*

Ümumiyyətlə, İslam Səfərlinin "Ordumuza ithaf", "Ədəbi gənclik", "Onüçlər", "Əmin ol, ata", "Təzə çiçəklər", "Üçüncü hərb istəmirik" kimi şeirləri müharibənin onun hafizəsində buraxdığı dərin izlərin təsirindən yaranmışdır.

Müharibə başa çatdıqdan sonra şair doğma Naxçıvana qayıtmış, bir müddət "Şərq qapısı" qəzetinin redaksiyasında və Naxçıvan Radio Komitəsində çalışmış, eyni zamanda "Azərbaycan gəncləri" qəzetinin bölgə müxbiri vəzifəsini yerinə yetirmişdir.

Qüdrətli bəstəkarımız Ü.Hacıbəylinin məsləhəti ilə 1946-cı ildə Bakıya gəlmiş, BDU-nun Filologiya fakültəsinin Jurnalistika şöbəsinə daxil olmuşdur. Bu illərdə bədii yaradıcılığını davam etdirən şair Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli kimi ustad sənətkarların diqqət və qayğısını hiss etmişdir.



Şairin ilk şeirlər kitabı 1950-ci ildə işıq üzü görmüşdür: "Mingəçevir mahnısı". Onun tələbəlik illərini vəsf edən "Darülfünun şeirləri" kitabı da 1951-ci ildə nəşr olunmuşdur. Bu kitaba şairin "Darülfünun pillələrində", "Yataqxana", "Xidmətçi qadın", "Təhsil illəri", "Yasəmən", "Məktəbdən həyata", "Təzə müdir" kimi şeirləri daxil edilmişdir.

Bu kitabdakı tələbəlik həyatına aid silsilə şeirlər gənc oxucuların qəlbinə yol tapmış, onların stolüstü kitabına çevrilmiş, dillərdə əzbər olmuşdur. Şeirlərdəki nəcib duyğular şairin müşahidələrinin, tələbə dostları ilə birlikdə keçirdiyi mənalı yataqxana həyatının rəngarəng hadisələrinin təsirindən yaranmışdır:

*Pilətəylə isindikcə de, yataqxana,*
*Qazan asıb tanış qızdan duz almısanmı?*
*Evinizdən gətirdiyin güllü çaydana*
*Lənkəranın tünd çayından heç salmısanmı?*
*Yaxud hərdən soyuq payız gecələrindəki*
*Mübahisə saatınız çəkibmi üçə?*
*Döyüşlərdən qalib çıxmış qəhrəman təki*
*Rahat olub yatmısanmı, söylə o gecə?*

O, tələbə dostu Əlfi Qasımova həsr etdiyi "Təhsil illəri" şeirində tələbəlik dövründə keçirdiyi hissləri çox həssaslıqla vermiş, təhsil almaq üçün Bakıya – paytaxta gələn dostuyla keçirdikləri acılı-şirinli tələbə həyatını gənclik çağının xoş bir xatirəsi kimi qələmə almışdır:

*Naxçıvan çayının göy vadisində,*
*Şəkərabad kəndində doğulmuşam mən.*
*Gözəl Qarabağın bir guşəsində*
*Ey dostum, həyata göz açmısan sən.*
*Lakin öz qəlbimiz, öz əməlimiz*
*Bizi bir məsləkə bağlamış artıq,*
*Elmə doğru uçan quş xəyalımız*
*Nə gecə, nə gündüz bilmir rahatlıq.*

İslam Səfərli Bakı Dövlət Universitetini bitirdikdən sonra 1951-52-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində İncəsənət şöbəsinin müdiri, 1953-59-cu illərdə Azərbaycan Radio İdarəsinin müxbiri, sonra ədəbi-dram şöbəsinin müdiri işləmişdir.

1959-cu ildən etibarən Azərbaycan Yazıçılar İttifaqında işə qəbul olunmuş və ömrünün sonuna qədər Poeziya və dramaturgiya şöbəsinin müdiri olmuşdur.

1973-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə şair İslam Səfərli "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli qələm ustası 51 illik qısa ömründə qiymətli sənət inciləri yaratmışdır.

Qeyd etmək lazımdır ki, müharibə mövzusu İslam Səfərlinin sonrakı dövr yaradıcılığında xüsusi yer tutur. Dinc quruculuq illərində qələmə aldığı "Sınaq gecəsi", "Yaralı nəğmə", "Qarlı bir gündə", "Çex qızının məhəbbəti" kimi poemaları bu baxımdan diqqəti cəlb edir. Bu poemalarda müharibə cəbhələrində qəhrəmanlıqla vuruşan və zəfərlər qazanan oğullarımızın igidliklərindən bəhs edilir. Bu poemalar şair təxəyyülünün deyil, mübariz və qəhrəman şairin özünün keçdiyi döyüş yolunun qanlı-qadalı günlərinin, aylarının, illərinin acı xatirələridir.

Bunların içərisində sonuncu poema xüsusilə seçilir. "Çex qızının məhəbbəti" adlı lirik poemasında şair İkinci Dünya müharibəsində görmə qabiliyyətini itirmiş dostu, məktəb yoldaşı Əhəd Əliyev və onunla birlikdə Azərbaycana gələn çex qızı Erikanın həyatından bəhs edir.

Bu poemanın qəribə bir yaranma tarixçəsi vardır. Şair yay mövsümündə Böyük bağda dostları ilə gəzişərkən Əhəd Əliyevlə uzun illərin ayrılığından sonra görüşür, dostu cəbhə həyatını, başına gələn fəlakətləri, çex qızı Erikanın ona dayaq olmasını, ona könül verməsini ətraflı şəkildə İslam müəllimə nağıl edir. Müharibə qəhrəmanının başına gələn faciələr, çex qızı Erikanın məhəbbətinə sədaqəti nəğməkar şairi çox mütəəssir edir və beləliklə, "Çex qızının məhəbbəti" adlı səmimi hisslərdən yoğrulmuş mükəmməl bir bədii əsər meydana çıxır:

*Yaralılar içində*
*Çex də var, alban da var.*
*Əhədin böyründəsə,*
*Yatır yaralı bolqar.*
*Lakin Erika sanki*
*Görməyir bir kimsəni,*
*Qəlbi Əhədi deyir:*
*"Səni sevirəm, səni".*
*Keçdi beş il, on beş il,*
*Unudulan şey deyil –*
*Nə düz ilqar, nə peyman,*
*Gözəl keçdi güzəran!*

İslam Səfərlinin bədii obrazlılığı ilə seçilən poeziyası bitkin bir vətənpərvərlik nümunəsidir. Bu baxımdan Naxçıvan mövzusunun şairin yaradıcılığında özünəməxsus yer tutması təsadüfi deyildir. Azərbaycanın ən qədim və ayrılmaz parçası olan Naxçıvan şairin doğulub boya-başa çatdığı, həyatı qədər sevdiyi bir diyardır. Məhz buna görə də şair yaradıcılığı boyu bu torpağı məhəbbətlə tərənnüm etmiş, neçə-neçə gözəl şeirlər ərsəyə gətirmişdir. Şairin "Naxçıvan", "Payız meşəsi", "Naxçıvanım", "Naxçıvan yadigarı", "İki küçə, iki ad", "Gəlin daş", "Batabat bulağı", "Qızlar bulağı", "Ordubad", "Kalba Musa çeşməsi", "Xalxal meşəsi", "Gəlmişəm" və sair şeirləri bu torpağa məhəbbətdən yaranmışdır. Şair "Batabat bulağı" şeirində yazır:

*Bulaqların bir səmtədir axarı,*
*Salvartının xoş görünür baxarı,*
*Biçənəkdən at səyirdib yuxarı,*
*Yalmanına yata-yata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

*"Qonaqgörməz" düşmənidir təkliyin,*
*Ayaqları xınalıdır kəkliyin,*
*Göl üstəki güllüyün, çiçəkliyin*
*Xoş ətrinə bata-bata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

Və ya "Xalxal meşəsi" şeirində:

*Vayxır çeşməsinin suları bumbuz,*
*Buluddan ay çıxdı, taladan ulduz,*
*Bir az da aşağı düşdü yolumuz,*
*Gəldi qulağıma quşların səsi,*
*A Xalxal meşəsi, Xalxal meşəsi.*

*Demirəm uca bir dağ belindəsən,*
*"Aran meşəsi"sən el dilində sən,*
*Naxçıvan çayının sahilində sən,*
*Boy at, qoy İslamın gülsün nəğməsi,*
*A Xalxal meşəsi, Xalxal meşəsi.*

Bu sətirləri ancaq bu torpaqda dünyaya gələn və torpaq qeyrəti çəkən İslam Səfərli kimi bir adam yaza bilərdi.

Nəğməkar şairimiz 200-dən artıq mahnı mətni yazmışdır: "Bakı, sabahın xeyir", "Ana", "Bir könül sındırmışam", "Batabat bulağı", "Pıçıldaşın, ləpələr", "Dalğalar" və sair.

Doğma yurdu qarış-qarış gəzdikcə şair bu xalqın, zəhmətsevərliyinə, mübarizliyinə heyran qalır, onu tərənnüm edir:

*Günlər keçir birəm-birəm,*
*Bir uğurlu yol gedirəm,*
*Yurdumuzu vəsf edirəm*
*Əldə qələm, dizdə varaq,*
*Mənə qalan bu olacaq.*

*İslam Səfərli az yaşadı, amma mənalı bir şair həyatı yaşadı. Xalqın sevimlisinə çevrilmiş nəğməkar şair həyatının son aylarında həmişə deyərdi: "Mən canım qədər sevdiyim bu torpağın vurğunuyam". Naxçıvan torpağının, ədəbi mühitinin layiqli nümayəndəsi və yetirməsi olan bu görkəmli söz ustası qədirbilən xalqımızın qəlbində daim yaşayacaqdır.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru***

## İslam Səfərlinin 100 illiyi münasibətilə tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Nəğməkar şair İslam Səfərli – 100" mövzusunda elmi konfrans keçirilib. Əvvəlcə qardaş Türkiyə Respublikasında baş verən zəlzələdə həyatını itirən fəlakət qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.*

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransı giriş sözü ilə açaraq bildirib ki, Əməkdar incəsənət xadimi, şair-dramaturq, tərcüməçi İslam Səfərlinin anadan olmasının 100 illiyi münasibətilə ölkə səviyyəsində müxtəlif tədbirlər keçirilmiş, elmi konfrans isə İslam Səfərli yaradıcılığının müxtəlif aspektlərdən təhlili məqsədi daşıyır. Akademik İslam Səfərli irsinin az tədqiq olunmasından və bu istiqamətdə əsaslı araşdırmaların aparılmasının labüdlüyündən bəhs edib.

Bölmə rəhbəri İslam Səfərlinin poeziyası, dramaturgiyası barədə fikirlərini konfrans iştirakçıları ilə bölüşüb, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsi tərəfindən hazırlanan "Taleyi və sənəti" seriyasının növbəti nəşrlərindən birinin İslam Səfərli yaradıcılığına həsr olunmasını təklif edib.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev konfransda "Nəğməkar şair ömrünün töhfələri" mövzusunda məruzə edib. Məruzəsində İslam Səfərlinin keçdiyi həyat yolu haqqında ətraflı məlumat verən professor bildirib ki, İslam Səfərli ədəbi yaradıcılığa 17 yaşında başlamış, 1941-ci ildə müharibə başlayanda könüllü olaraq cəbhəyə yollanmışdır. O, 416-cı Taqanroq diviziyasının tərkibində Berlinə qədər şanlı döyüş yolu keçmişdir. Müharibənin onun yaradıcılığına böyük təsiri olmuş, bir-birindən maraqlı poeziya nümunələri ərsəyə gətirmişdir.

İslam Səfərlinin bədii obrazlılığı ilə seçilən poeziyasının bitkin bir vətənpərvərlik nümunəsi olduğunu deyən Əbülfəz Quliyev qeyd edib ki, şairin yaradıcılığında Naxçıvan mövzusu xüsusi yer tutur. 200-dən artıq şeirinə musiqi bəstələnməsi İ.Səfərlini nəğməkar şair kimi tanıtmışdır. Sözlərinin müəllifi olduğu mahnılar bu gün də sevilə-sevilə dinlənilir.

"İslam Səfərli yaradıcılığında folklor" mövzusunda məruzə edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov bildirib ki, İslam Səfərli yaradıcılığında şifahi xalq ədəbiyyatının əksər janrları ahəngdarlıq yaradır. Şairin yaradıcılığında xalq şeir formalarına bənzərlik, şairin ustalığı, xalq dilinə yaxınlıq onun poeziyasının sevilməsinin əsas meyarlarındandır.

İnstitutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov konfransda "Könül nəğməsi Azərbaycan himni olan sənətkar" mövzusunda etdiyi məruzədə İslam Səfərli poeziyasının axıcılığı, təsirliliyi, xalq dilinə yaxınlığı kimi özünəməxsus keyfiyyətlərindən danışıb. Tədqiqatçı vurğulayıb ki, İslam Səfərli yaradıcılığı özünün mövzu, məzmun və sənətkarlıq xüsusiyyətlərinə görə xüsusi əhəmiyyətə malikdir.

İnstitutun elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov konfransda "İslam Səfərli pyesləri Azərbaycan səhnəsində" başlıqlı məruzə edərək istedadlı dramaturqun yaradıcılığı, səhnələşdirilən pyesləri, əsərlərinin süjet xətti, tamaşaların yaradıcı heyəti və tamaşalar haqqında mətbuatda dərc olunan yazılar barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, onun pyesləri dəfələrlə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Milli Dram Teatrında səhnəyə qoyulub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***



Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında şair-dramaturq İslam Əhməd oğlu Səfərlinin anadan olmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə kitabxananın direktoru Tamella Əsgərova açaraq qeyd etmişdir ki, İslam Səfərlinin yaradıcılığında Azərbaycanın poetik xəritəsi canlandırılmışdır. Şairin yaradıcılığında Bakıya və Xəzərə həsr olunmuş şeirlər geniş yer tutur. İslam Səfərli Azərbaycan poeziyasında həm də Naxçıvan şeir silsiləsinin görkəmli yaradıcısı kimi qəbul olunur. İslam Səfərlinin Naxçıvan mövzusunda yazılmış iyirmidən çox şeirində Azərbaycanın ayrılmaz parçası olan bu ecazkar yurdun özünəməxsusluqları, bütün incəlikləri və dərin mənaları ilə yüksək poetik səviyyədə, orijinal bədii vasitələrlə əks etdirilmişdir.

Sonra AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi Ələkbər Qasımov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının böyük kitabxanaçısı Nuriyyə Mədətova çıxış edərək bildirmişlər ki, böyük insan, dramaturq, nəğməkar şair, ictimai xadim İslam Səfərlinin yaradıcılığı çoxşaxəlidir. Onun şeirlərinə məşhur bəstəkarlarımız tərəfindən 200-ə yaxın mahnı bəstələnib. Şairin bir çox şeirlərinə bəstələnmiş mahnılar indinin özündə də dillər əzbəridir və sevilə-sevilə dinlənilir.

İslam Səfərli dramaturq kimi də böyük uğurlar qazanmışdır. Onun "Dar ağacı", "Ana ürəyi", "Yol ayrıcında", "Yadigar", "Xeyir və şər" dramları, "Qayın arvadı, xayın arvadı" komediyası və bir çox pyesləri indi də sevilən əsərlər sırasındadır.

Sonra Oxuculara xidmət şöbəsinin müdiri Aysel Əhmədova şairin kitabxananın fondunda olan kitabları haqqında məlumat vermişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***





# Qardaşlıq və birliyimizin tarixi qədim keçmişə dayanır

*Tarixin bütün dövrlərində bizə dost, qardaş olan, əlindən gələn köməyi əsirgəməyən Türkiyənin 10 vilayətində baş verən dəhşətli zəlzələ xalqımızı dərindən sarsıtdı, kədərləndirdi. Fəlakətin törətdiyi mənzərələr qəlbimizə acı verir, göz yaşlarımıza hakim ola bilmirik. Dövlət başçımızın rəhbərliyi ilə hadisə yerinə mütəxəssislərin cəlbi, zərərçəkmiş qardaşlarımıza ölkəmizin hər yerindən göstərilən yardımlar az da olsa, içimizə təskinlik verir. Türk dünyasının iki böyük lideri – Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Ulu Öndər Heydər Əliyevin* ***"Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir"*** *tarixi kəlamları birliyimizi, həmrəyliyimizi daha da gücləndirir, gələcək nəsillər üçün böyük vəsiyyət olaraq qalır.*

Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı ən çətin günlərdə sınaqdan çıxmışdır. Bu iki dövlətin bir-birinə yardımı, dəstəyi çox-çox əvvəllərə gedib çıxır. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində oxuyarkən müdafiə etdiyim "Qardaş köməyi" məcmuəsinin ideya və sənətkarlıq xüsusiyyətləri" mövzusunda diplom işim bu baxımdan bu gün üçün də aktualdır.

Hələ 1915-ci ildə Bakıda Anadolu Türkünün Qurtuluş mübarizəsinə dəstək vermək məqsədilə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti liderliyində "Qardaş köməyi" (yardımı) fəaliyyəti başlamışdır. Bu təşkilatın 1917-ci ildə "Qardaş köməyi" jurnalını nəşr etmə təşəbbüsü nəticəsində Anadolunun qurtuluş müharibəsinə dəstək məqsədilə Bakıda minlərlə şəxs toplanmış, toplanan bu insanlar pullarını, qızıllarını və ailələrinin zinət əşyalarını Anadoluya çatdırmaq üçün adıçəkilən təşkilata vermişdilər. Jurnalda o dövrün tanınmış yazıçı və şairlərin, dövlət duması üzvlərinin – Hüseyn Cavid, Abdulla Şaiq, Əli Nəzmi, Ömər Faiq Nemanzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Əbdürrəhim bəy Haqverdiyev, Şəfiqə Əfəndizadə və digərlərinin şeir və hekayələrində iki xalq, millət üçün də aktual olan dil, din, xeyirxahlıq, milli birlik, həmrəylik məsələləri öz əksini tapmışdır.

XX əsrin başlanğıcında SSRİ-nin Azərbaycanı işğal etməsi ilə birlikdə Türkiyə ilə bütün Türk dünyasının və Azərbaycan münasibətləri süni maneələrlə, zorla ayrılmış oldu. Eyni dilin, eyni dinin, eyni tarixin və eyni duyğuların paylaşıldığı bu geniş coğrafiya yaxın bir əsr boyunca qardaşların bir-birinə olan həsrət acısına səhnə oldu. İllər sonra Anadolu türklərinin Türk dünyasıyla və Azərbaycanla arasındakı əngəllərin aradan qalxması ilə ayrılıq həsrəti də sona yetdi. Bu iki xalq ən çətin vaxtlarda bir-birinə qardaş köməyini əsirgəməmiş, istər 1918-ci ildə qurulmuş Azərbaycan Demokratik Respublikası, istərsə də 1991-ci ildə müstəqil olmuş Azərbaycan Respublikasını tanıyan ilk dövlət dost və qardaş Türkiyə olmuşdur. Azərbaycan türklərinin Birinci Dünya müharibəsi illərində rus işğalına məruz qalan Türkiyə torpaqlarında "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi" və "Qardaş köməyi" dərgisi vasitəsilə Anadolu türklərinə kömək göstərmələri dərin tarixi dostluq və qardaşlığın daha bir göstəricisi idi. Jurnalda iki qardaş arasındakı dostluq belə qiymətləndirilirdi:

*Türkiyə və Azərbaycan...*
*Dost və qardaş...*
*Ətlə, dırnaq ayrılmaz iki parça...*
*Birinin sevinci, digərinin sevinci; birinin kədəri digərinin kədəri...*

İki ölkə arasında olan həmrəylik ruhu yaxşı gündə olduğu kimi, pis gündə də, sülh vaxtı olduğu kimi, müharibədə də özünü göstərirdi. Bu qardaşlığı mərhum Bəxtiyar Vahabzadə bu sözlərlə ifadə edirdi:

*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Sevgimiz bir, yolumuz bir,*
*Azərbaycan-Türkiyə:*
*Birdir bizim hər halımız*
*Sevincimiz-məlalımız.*
*Bayraqlarda hilalımız*
*Azərbaycan-Türkiyə.*

XX əsrin əvvəllərində yaradılan və gələn gəliri Anadoluda savaşan türk əsgərləri üçün istifadə olunan "Qardaş köməyi" jurnalı Birinci Dünya müharibəsində Azərbaycan xalqının Anadolu türklərinə etdiyi yardımları, müxtəlif təşkilatların, xeyriyyə cəmiyyətlərinin bu yoldakı fəaliyyətlərini özündə əks etdirir, 1905-ci ildən sonra Azərbaycan türklərinin milli oyanış hərəkatını əks etdirir, Balkan və Çanaqqala savaşlarında Azərbaycan xalqının könüllü dəstələr yaradaraq türk əsgərləri ilə çiyin-çiyinə döyüşlərdə iştirakı xatırlanır. Savaşdan əziyyət çəkən, öz yurd-yuvasından olan köçkünlərə, ata-anasız qalmış körpələrə, Nargin adasındakı əsirlərə edilən qardaş köməyi, Qars, Ərzurum, Van, Həsənqala, Bəyazid, Muş bölgələrində ermənilərin Anadolu türklərinə qarşı törətdikləri qanlı olayların qarşısını almaq üçün Azərbaycan türklərinin gizlin təşkilat yaradaraq mübarizə aparmaları öz əksini tapır.

Azərbaycanda fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri Türkiyənin şərq vilayətlərinin müharibədən əziyyət çəkən əhalisinə sistemli şəkildə maddi və mənəvi yardım göstərirdilər. Çar hökuməti bu yardıma hər vasitə ilə mane olmağa çalışırdı. Lakin Azərbaycanın millətpərvər qüvvələri bu çətinliklərə baxmayaraq, qardaşlıq köməyini əsirgəmədilər. Bu məsələdə "Cəmiyyəti-Xeyriyyə"nin fəaliyyəti xüsusilə diqqətəlayiq idi. Təşkilatın Bakıda yaratdığı xüsusi komissiya Qars, Ərdahan, Ərzurum və başqa əyalətlərə gedib müharibədən zərərçəkən yerli əhalinin ağır vəziyyəti ilə tanış olmuş və bu barədə mətbuatda ətraflı məlumat dərc etdirmişdi. "Qardaş günü" adlı məqalədə Qars və Ərdahan vilayətlərində cərəyan edən hadisələrdən, öz yurd-yuvasından didərgin düşənlərin ağır vəziyyətindən danışılır, onların yeganə ümidləri öz dini, qanı bir qardaşlarınadır, – deyə bəhs edilir.

Jurnalın üz qapağında təsvir olunan yaralı ceyran və kiçik balalarının da xüsusi bir mənası var idi. Yaralı ceyran Osmanlını təmsil edirdi. Əgər o, həlak olarsa yerdə qalan digər bala ceyranlar da həlaka, məhv olmağa məruz qalacaqdılar. O gün üçün Osmanlı həm İslam, həm də Türk dünyasının lider dövləti idi. Osmanlı əldən gedərdisə, yerdə qalan digər İslam və türk dövlətləri də məhv olardılar.

Jurnalın yazarlarından Əli Mişan "XX əsrin qanlı bir yadigarı" şeirində dövrün ictimai-siyasi mənzərəsinə nəzər salır, müsəlmanların başına gətirilən fəlakətləri ürəkağrısı ilə qələmə alırdı:

*Nə matəmdir yenə bilməm*
*könül eylər fəqan ağlar!*
*Bütün səyyarələr, göylər*
*inildər hər məkan ağlar.*
*Ağaclar, nəhrlər, quşlar,*
*zəmin və asiman ağlar.*
*Belə suzişli halətdən bu gün*
*cümlə-cəhan ağlar!*

"Gəl deyir: – gəl qardaşım, indi nə taparsaq bölüşək, birlik olaq. Bizi yalnız bu xilas edəcək". O çətin vaxtlarda da Azərbaycan-Türkiyə həmrəyliyi, qardaşlığı, yardımlaşmaların ən gözəl örnəkləri idi.

Xeyriyyəçilik yalnız maddi bir hadisə deyil, mənəvi, ruhi bir hadisədir, yəni bu bir mədəniyyətdir. Çətin gündə dost köməyinin nəcib timsalı olan "Qardaş köməyi" jurnalının nəşri Türkiyə ilə dərin tarixi, mədəni, din və dil əlaqələri olan Azərbaycanla yaxın dövrdə də bu bağların güclənməsində tarixən var olan qardaşlıq və dostluq hisslərinin daha da möhkəmlənməsinə ciddi dəstək olmuşdur. Qəzetin yazarları tək müharibənin gedişini işıqlandırmır, müharibənin insanları faciələrə gətirib çıxarmasını, onları yurdsuz-yuvasız qoymasını da qələmə alır, müharibədən zərər çəkənlərə yardım əli uzatmağı həmvətənlərinə məsləhət görürdü. Hətta qəzet Anadoluda müharibədən zərərgörmüş, yurdsuz-yuvasız qalmış türk qardaşlarının ehtiyaclarını ödəmək üçün ianə kampaniyaları da keçirirdi. 1918-ci il yanvar ayının 18-də çap etdirdiyi bir məqalədə yanvarın 19-nun "Əsirlər günü" elan olunması barədə məlumat verərək yazırdı ki, Bakıda əsir və möhtaclar üçün libas, yorğan-döşək toplanılacaqdır. "Qardaş köməyi" dərgisinin daha çox satılıb, xeyli miqdarda pul toplanması üçün qəzetdə mütəmadi olaraq elanlar dərc olunurdu. Jurnalın 1918-ci il 2 yanvar sayında "Qardaş köməyi"nin Bakıda 1 manat 30 qəpiyə, ayrı-ayrı şəhərlərdə isə 1 manat 70 qəpiyə satıldığı haqqında verilən elandan bəlli olur ki, bu işi həyata keçirənlərin əsas məqsədi Anadolu köçkünlərinə, Sarıqamışda, Ərzurumda əsir götürülən türk əsirlərinə daha çox maddi kömək göstərməyə nail olmaq idi.

Jurnalda dərc edilən Hüseyn Mircamalovun "Ümid" adlı yazısında sabaha ümidli baxışlar öz əksini tapır: "Hər tərəfdən gələn nalələr, şikayətləri dinləyəlim; gözü qanyaşlıların halını düşünəlim. Haydı, qardaşlar, dindaşlar. İnsan övladının əlindən tutalım... Ancaq bu vasitə ilə kəmali-bəşərə ərmək mümkün olduğunu bilərək ümidlərlə yaşayalım!"

Qardaş köməyi, birlik və həmrəylik bu gün də yaxşı, pis gündə bu iki dövlətin əsas şüarıdır. Türkiyədə baş verən təbii fəlakət zamanı ilk olaraq Azərbaycan Türkiyəyə yardım əlini uzatdı. Ölkə başçısının tapşırığı ilə bütün qurumlar, ictimai təşkilatlar Türkiyəyə yardım üçün səfərbər edildi, həkimlər, xilasedicilər, könüllülər hadisə yerinə göndərildi. Vətəndaşlarımız könüllü olaraq qardaşlarına dəstək olmaq üçün yardım aksiyasına qoşuldular. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən fond tərəfindən qardaş ölkəyə faciədən zərərçəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və sair daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər göndərilib. Avropanın aparıcı enerji şirkətlərindən olan SOCAR bütün imkanlarla zərərçəkmişlərə yardım edir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da qardaş ölkə üçün humanitar yardım aksiyası keçirilir, sakinlər, sahibkarlar tərəfindən göstərilən yardımlar artıq Türkiyəyə yetişib. Əlahiddə Ümumqoşun Ordu tərəfindən çadır dəsti, qızdırıcı, istilik ləvazimatları verilib, ordunun heyəti, könüllülər yardım aksiyasında fəal iştirak edir. Naxçıvan şəhərində və digər rayonlarımızda yerləşən səhiyyə müəssisələri türk qardaşlarımızı qəbul etməyə hazırdır. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti zəlzələdən zərərçəkənlərə yardım etmək məqsədilə "Naxçıvanbank"dan edilən bütün pul köçürmələrini komissiyasız həyata keçirir.

*Bu gün də bu birlik, həmrəylik, mübarizlik, əzmkarlıq gələcəyə böyük ümid, inam hissləri aşılayır. Fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olan, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verən Prezident cənab İlham Əliyevin dediyi kimi:* ***"Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan şəhərində zəlzələ qurbanlarının xatirəsinə ehsan verilib



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya və dindarların iştirakı ilə dünən Naxçıvan şəhərindəki Kazım Qarabəkir Paşa məscidində cümə namazı qılınıb. Mərasim iştirakçıları qardaş Türkiyədə zəlzələdən dünyasını dəyişənlərin ruhlarına dualar oxuyub, yaralılara şəfalar diləyiblər.



Sonra mərasim evində ehsan süfrəsi açılıb. Ehsan zamanı iki qardaş xalqın din-dil birliyindən, həmrəyliyindən, oxşar milli adət-ənənələrindən bəhs olunub.

## Zəlzələ baş verən bölgələrə Naxçıvandan yardımlar davam etdirilir




Xəbər verdiyimiz kimi fevralın 6-da Türkiyənin 10 vilayətində baş verən güclü zəlzələlər nəticəsində yaranan dağıntıların aradan qaldırılması, insan tələfatlarının qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görülür. Ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişlərinə əsasən zəlzələ bölgəsinə ard-arda bir neçə çevik xilasetmə dəstəsi, yaralananların müayinə və müalicəsi məqsədilə səhra çadırları, tibbi ləvazimatlarla, zəruri vasitələrlə zəngin humanitar yardımlar göndərilib.




Naxçıvan Muxtar Respublikasında da fevralın 7-dən etibarən Türkiyəyə hərtərəfli dəstək aksiyası keçirilir, muxtar respublikanın Bakıdakı Daimi Nümayəndəliyinin kollektivi, paytaxt Naxçıvan şəhərində, rayonlarda müxtəlif dövlət təşkilatlarının əməkdaşları, sakinlər, sahibkarlar yardım kampaniyalarına, humanitar aksiyaya canla-başla qoşulub, səhiyyə ocaqları ehtiyac yarandıqda Türkiyədən olan yaralıların qəbulu, müalicə və müayinələri üçün tam hazır vəziyyətə gətirilib. Fevralın 7-də 1, 8 və 9-da isə hər gün 12 olmaqla, ümumilikdə, 24 TIR yardım qardaş ölkəyə göndərilib. Fevralın 10-da isə zəlzələ bölgəsində əziyyət çəkən insanların köməyinə yetişəcək zəruri vasitələrlə dolu daha 11 TIR Türkiyəyə yola salınıb. TIR-larda 2 səhra generatoru, yaşayış üçün 3 konteyner, Əlahiddə Ümumqoşun Ordu tərəfindən verilən 275 hazır yataq, eləcə də sadə yataq dəstləri, xalçalar, qida, su, uşaq bezləri, dərmanlar olub.

Qeyd edək ki, humanitar yardım aksiyasına Naxçıvan Muxtar Respublika Xəstəxanası da qoşulub. Xəstəxana tərəfindən faciədən zərərçəkənlərə dərman, müxtəlif tibbi ləvazimatlar, qida və geyimlərdən ibarət humanitar yardım göndərilib.

Muxtar respublikanın dövlət qurumları ilə yanaşı, iri istehsal müəssisələri də yardım kampaniyasında fəallıq göstəriblər. Belə ki, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı Türkiyədəki zəlzələ bölgəsinə 40 tona yaxın yardım göndərib. Yardımlar, əsasən, müxtəlif qida, geyim və tibb məhsullarından ibarət olub.

Humanitar yardım aksiyasında "Badamlı" Mineral Sular Zavodu da öz dəstəyini əsirgəməyib. Müəssisə tərəfindən qardaş ölkədə zəlzələ baş verən bölgələrə 35 ton yardım göndərilib.

Ümumilikdə, muxtar respublikadan zəlzələ bölgəsinə 35 TIR-dan çox humanitar yardım yola salınıb.

Qeyd edək ki, baş verən təbii fəlakət nəticəsində ölənlərin sayı 19 388 nəfərə çatıb. 77 711 nəfər isə yaralanıb.

**Xəbərlər şöbəsi**

*Təbii fəlakət əhalinin normal fəaliyyətinin qəfildən pozulmasına səbəb olan, maddi sərvətləri korlayan və məhv edən müxtəlif təbiət hadisəsidir. Onlar çox vaxt ətraf mühitə mənfi təsir göstərir. Təbii fəlakətlərə zəlzələ, daşqın, torpaq sürüşməsi, qar uçqunu, vulkan püskürməsi, tufan, uçqun, sel və boran aiddir. Təhlükəli hadisələrə bundan başqa, istehsalat qəzaları, meşə yanğınları və yanıqlar da aiddir. Neft, qaz və kimya sənayesi müəssisələrində xüsusilə təhlükəli qəzalar baş verə bilər. Təbii fəlakətlərə yanğınlarla, qəzalarla müxtəlif cür rastlaşmaq olar.*

## Gözlənilməz təbii fəlakət




Təbii fəlakətlər bir-birindən asılı olmayaraq, ancaq bir-biri ilə əlaqəli baş verə bilər. Onlardan biri öz arxasınca digərini cəlb edə bilər. Onlardan bəziləri çox vaxt insanların düşünülməmiş fəaliyyəti nəticəsində yaranır. Məsələn, meşə və torf yanğınları, dağlıq yerlərdə, tikinti sədlərində, karyerlərin işlənməsində istehsalat partlayışları çox vaxt torpaq sürüşməsinə, qar və buz uçqununa səbəb olur. Təbii fəlakətin yaranma mənbəyindən asılı olmayaraq, ölçüsünə və müxtəlif davamediciliyinə görə xarakterizə etmək olar. Təbii fəlakətlər bir neçə saniyə və dəqiqədən (zəlzələ, qar uçqunu), bir neçə saata qədər (sel), günlərlə (torpaq sürüşməsi) və aylarla (daşqın) davam edə bilər. Təbii fəlakətlərdən ən dəhşətlisi zəlzələdir. Zəlzələ tektonik və vulkanik səbəblərlə nəticələnən, binaların, qurğuların dağıdılmasına gətirib çıxaran yanğın və insan ölümü ilə nəticələnən yer qabığının güclü silkələnməsidir.

Zəlzələnin əsas xarakteristikası ocağın dərinliyi, torpağın üst qatında enerjinin intensivliyi və maqnitudasıdır. Zəlzələ ocağının dərinliyi, adətən, 10 kilometrdən 30 kilometrə qədər sərhəddə yerləşir və bəzi hallarda o, əhəmiyyətli dərəcədə böyük ola bilər. Maqnituda zəlzələnin ümumi enerjisini xarakterizə edir və episentrdən 10 kilometr kənara seysmoloqram üzrə ölçülən mikronlarda torpaq qatının maksimum amplitudasının loqarifmasını göstərir. Rixter üzrə maqnituda 0-dan 9-a qədər ölçülür (ən güclü zəlzələ). Hər vahiddə onun artımı yer qabığında enib-qalxmanı 10 dəfə artan amplitudasını göstərir və zəlzələnin enerjisi 30 dəfə artır. Yerin üst qatında enerjinin intensivliyi balla ölçülür. O, ocağın dərinliyindən, episentrindən uzaqlıqdan, qruntların geoloji quruluşundan və digər faktorlardan asılıdır. Zəlzələnin enerjisinin intensivliyini ölçmək üçün əksər dövlətlərdə Rixter şkalası üzrə 12 bal qəbul edilib. Zəlzələ böyük maddi ziyan vurur və minlərlə insanın həyatını məhv edir. Zəlzələ, həmçinin digər təbii fəlakətlərə – sunamiyə, torpaq sürüşməsinə, qar uçqununa, selə, daşqına (bəndin uçması səbəbindən), yanğına (neft saxlama yerinin ziyan çəkməsində və qaz borusunun deşilməsində), kommunikasiyanın, enerji, su və kanalizasiya xətlərinin dağılmasına, kimya müəssisələrində qəzalara səbəb ola bilər. Hazırkı dövrdə zəlzələnin və onun nəticələrinin proqnozlaşdırılmasının kifayət qədər ümidverici metodu yoxdur. Ancaq alimlər çox vaxt torpağın quruluşunun xarakterinin ölçülməsi, həmçinin zəlzələdən qabaq canlı orqanizmlərin özlərini qeyri-adi aparması ilə proqnoz verə bilirlər.

Zəlzələni öncədən xəbər verənlər aşağıdakı hallardır: zəif təkanların sürətinin tez-tez artması; yer qabığının deformasiyası, kosmosdan sputniklə müşahidənin müəyyən edilməsi, lazerin köməyi ilə yerin üst qatının çəkilməsi, zəlzələ ərəfəsində davam edən və sayılan dalğaların yayılma sürətinə münasibəti ölçmə, yarıqlarda qrunt sularının səviyyəsi, canlı heyvanların qeyri-adi hərəkətləri. Məsələn, pişiklər zəlzələdən qabaq kəndi tərk edir, quşlar qəfəsdə zəlzələ olmazdan 10-15 dəqiqə qabaq təlaşla uçmağa başlayırlar. Təkandan qabaq quşlar qeyri-adı səslər çıxarır və sair. Qabaqcadan zəlzələdən müdafiə olunmaq üçün dövlətlərin müxtəlif regionlarda seysmik təhlükəli zonaları olur. Həmin yerlər seysmik rayonlaşdırma adlanır. Seysmik rayonlaşdırma xəritəsində, adətən, Rixter şkalası üzrə 7-8 baldan yuxarı zəlzələnin intensivliyi olan sahələr ayrılır. Seysmik təhlükəli rayonlarda müxtəlif növ müdafiə tədbirləri nəzərdə tutulur. Həmin rayonlarda binaların, qurğuların rekonstruksiyası və tikilməsində norma və qaydalar şərtsiz yerinə yetirilməli, təhlükəli istehsalın fəaliyyəti dayandırılmalıdır.

Bəlkə də, təbii hadisələrdən ən qarşısı alınmazı və amansızı zəlzələdir. Zəlzələlər bütün ölkələrdə özündən sonra dağılmış kəndlər, şəhərlər və silinməz izlər buraxmış, bəzilərinin isə tarixini dəyişmişdir. İnsanların bu təbii fəlakət zamanı necə davranılması ilə bağlı vaxtında maarifləndirilməsi, təhlükəsiz yerlərə vaxtında təxliyə olunması ilə çoxsaylı insan tələfatının qarşısının alınması mümkündür. Qardaş Türkiyədə fevralın 6-da baş verən, minlərlə insanın həyatına son qoyan zəlzələ bir daha göstərdi ki, bu cür hadisələrə daim hazır olmalıyıq. Zəlzələ ehtimalı olan hallarda Mülki Müdafiə Qərargahı elan edilməlidir.

Lazımi paltarları, sənədləri, ərzaq və su ehtiyatı götürüb küçəyə çıxmaq, qocalara və xəstələrə kömək etmək lazımdır. Mülki Müdafiə qərargahlarının verdiyi xəbərlər diqqətlə dinlənilməli, zəlzələ təhlükəsi barədə ehtimal varsa, əhali əvvəlcədən məlumatlandırılmalıdır. Mənzil və iş yerini tərk etməzdən əvvəl işığı və qazı bağlamaq, sobada odu söndürmək lazımdır. Lazımi əşyaları və sənədləri, ərzaq və dərmanları isə götürmək lazımdır. Binada olarkən zəlzələ baş verdikdə tavanlardan qopub tökülən suvaq parçalarından, armaturdan, həmçinin aşan şkaflardan, rəflərdən insanlar özlərini qorumalıdırlar. Pəncərələrdən, düzəldilən işıq cihazlarından, sobalardan kənara çəkilmək, içəri divarlardakı qapı tağı altında dayanmaq lazımdır. Yeraltı təkanlar səngiyən kimi, dərhal binanı tərk etmək lazımdır. Küçədə olarkən onun mərkəzi hissəsinə açıq meydançalara, tikintisiz yerlərə çıxmaq lazımdır. Bina və qurğulardan, elektrik verilişi xətləri və dayaqlardan uzaqda dayanmaq lazımdır.

Qəza-xilasetmə işləri – fövqəladə halların nəticələrinin aradan qaldırılması, fövqəladə hallarda zərərçəkmiş insanların xilas edilməsi, onlara tibbi köməyin göstərilməsi, qəzaların lokallaşdırılması və aradan qaldırılması, mümkün ola biləcək itki və zərərlərin həcminin azaldılması növbəti bərpa işləri üçün şəraitin yaradılması məqsədilə həyata keçirilən qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsidir.

Qəza-xilasetmə işlərinin məqsədi – zərərçəkmiş insanların axtarışı, qəza baş vermiş yerlərdən çıxarılması, xilas edilməsi, onlara ilk tibbi və ilk həkim köməyinin göstərilməsi, müalicə müəssisələrinə göndərilməsidir. Müxtəlif təbii fəlakətlərin – zəlzələ, sel, sürüşmə, daşqın və sairlərin nəticələrini aradan qaldırmaq üçün nəzərdə tutulan işlər mülki müdafiənin vəzifələrində öz əksini tapmalıdır.

Beləliklə, mülki müdafiənin qarşısında duran vəzifələr beynəlxalq vəziyyət, ölkə ərazisinin fiziki-coğrafi xüsusiyyətləri və dövlətin iqtisadi imkanları nəzərə alınmaqla müəyyən edilir.

Belə işlərə xəsarətə uğramış adamların axtarılması, xilas edilməsi, tibbi yardım göstərilməsi, zərərsizləşdirmə, kommunal şəbəkələrdə qəzaları aradan qaldırma və digərləri aiddir. Bunun üçün əvvəlcədən müxtəlif mülki müdafiə dəstələri, komandalar, qruplar, briqadalar, manqalar yaratmaq, onları müvafiq avadanlıqlarla təchiz etmək, xilasetmə işləri aparmaq qaydalarını öyrətmək tələb olunur.

Son zamanlar qardaş Türkiyədə baş verən zəlzələ bir daha bu təbii fəlakətin törədə biləcəyi faciələri, istənilən təbii fəlakət zamanı insan tələfatının, maddi itkilərin minimuma endirilməsi üçün əvvəlcədən hazırlığın əhəmiyyətini gündəmə gətirdi. Belə ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək yüzlərlə afterşoklar qeydə alınıb. Zəlzələ 19 mindən çox insan tələfatı ilə nəticələnib. Azərbaycanın hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan baş vermiş dəhşətli təbii fəlakətlə əlaqədar qardaş Türkiyənin yanında olması, həmrəylik nümayiş etdirməsi bu acı faciənin fəsadlarının aradan qaldırılmasına böyük mənəvi dəstək, qardaşlıq sevgisi deməkdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Türkiyəyə göndərilən Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər. Nazirliyin son məlumatında bildirilib ki, xilasedicilər zəlzələdən ciddi zərər görmüş Kahramanmaraşda dağıntılar altından 45 nəfəri sağ, 269 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər. Fevralın 6-dan indiyədək Fövqəladə Hallar Nazirliyinin 725 nəfərlik şəxsi heyəti Türkiyəyə göndərilib. Onlardan 34 nəfəri həkim və 7 nəfəri texniki işçi olmaqla tibbi heyətə aiddir. Bununla yanaşı, Müdafiə Nazirliyinin 20 nəfərlik hərbi tibbi personalı zəlzələ zonasındadır. İnanırıq ki, qardaş ölkə, dost xalq olaraq Azərbaycan və Türkiyə bundan sonra da sevincli günlərdə olduğu kimi, çətin anlarda da bir-birinin yanında olacaq, öz dəstəyini, qardaşlıq yardımını əsirgəməyəcək. Biz birlikdə güclüyük!

**Cavanşir ZEYNALLI**
***Naxçıvan Dövlət Universitetinin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının baş müəllimi***

## “Uşaqlarla ünsiyyət hüququ” mövzusunda tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə “Uşaqlarla ünsiyyət hüququ” mövzusunda tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) əməkdaşları Asiman Abbasov, Təhminə Ələkbərova, Elməddin Tahirov, Ədliyyə Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin qəyyumluq və himayə orqanının əməkdaşları və valideynlər iştirak ediblər.

Tədbirdə çıxış edən Ədliyyə Nazirliyinin şöbə rəisi Emin Kazımov və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının şöbə müdiri Asiman Abbasov bildiriblər ki, Azərbaycan Respublikasında uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması istiqamətində həyata keçirilən dövlət uşaq siyasəti uşaqların hərtərəfli kamil şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasına xidmət edir.

Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) əməkdaşı Təhminə Ələkbərovanın, Ədliyyə Nazirliyinin əməkdaşı Rəşad Allahverdiyevin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Elton Həziyevin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin qəyyumluq və himayə orqanının əməkdaşı Səfər Vəliyevin mövzu ətrafında çıxışları dinlənilib.

Qeyd olunub ki, bu sahəyə dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və qarşısının alınmasıdır.

Diqqətə çatdırılıb ki, uşaq hüquqları ilə bağlı beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyətdə olmaq, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir. Valideyn-uşaq münasibətlərinin, eləcə də uşaqla ünsiyyətin qurulmasının uşağın həyatının bütün sahələrinə təsir göstərməsi hallarını nəzərə alaraq hər bir valideyn üzərinə qanunla qoyulmuş vəzifələrin məsuliyyətini anlamalı və uşaqların qanuni mənafelərini üstün tutmalıdır.

Tədbirin sonunda mövzu ətrafında fikir mübadiləsi aparılıb və valideynləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Naxçıvanda vergi daxilolmaları 112,1 faiz icra olunub

2023-cü ilin yanvar ayı üzrə Naxçıvan Muxtar Respublikasında vergi daxilolmaları 9 milyon 953 min manat təşkil edib və proqnoz 112,1 faiz yerinə yetirilib. Proqnozlaşdırılan məbləğdən artıq toplanan vəsait 1 milyon 71 min manat olub. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 10 milyon 209 min manat olmaqla proqnoza 119,1 faiz əməl edilib. Proqnozlaşdırılan məbləğdən 1 milyon 639 min artıq vəsait toplanıb. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 249 min manat olub, proqnoza 128,4 faiz əməl edilib. Proqnozlaşdırılan məbləğdən artıq toplanan vəsait 55 min manat olub. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar 1 milyon 510 min manat olub, büdcəyə nəzərdə tutulandan 123 min manat artıq vəsait daxil olub.

Ötən ay ərzində 47 hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan 383 fiziki şəxs qeydiyyata alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Azərbaycan Respublikasının ərazisində daimi yaşama icazəsi almaq üçün kimlər vəsatət verə bilər?*

***Cavab:*** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq ölkə ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər.

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə daimi yaşamaq üçün icazə Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. Müvafiq icazə verildikdə, həmin şəxslərə Dövlət Miqrasiya Xidməti tərəfindən ölkə ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ödədiyi dövlət rüsumunun məbləğinə müvafiq olaraq qanunda nəzərdə tutulmuş müddətdə baxılır.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin ***202*** Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının e-mail adresinə və ya xidmətin rəsmi “Facebook” (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və “Instagram” *(nmr_miqrasiya_xidmeti)* sosial şəbəkələrinə ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilmiş 85K181 nömrəli yükləyici texnikanın qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 112